**KƏMALƏ MƏMMƏDOVA**
**ADU**
**Reşid Behbudov 80**
**Kemale_rzayeva@mail.ru**

# M.T.ZEHTABİNİİN AZƏRBAYCAN DİLİNİN VARLIĞI VƏ TƏMİZLİYİ UĞRUNDA MÜBARİZƏSİ

**Xülasə**

Məqalə M.T.Zehtabinin həyat və yaradıcılığına həsr olunmuşdur. Professor Zehtabinin Azərbaycan dilinin inkişafı yolunda mühüm rol oynadığı vurğulanır. Məqalədə M.T.Zehtabinin İranda və Cənubi Azərbaycanda milli ruhun formalaşmasında mühüm əhəmiyyət kəsb etdiyi verilir. O, Cənubi Azərbaycanda dilçiliyin yayılmasında böyük əhəmiyyəti olan ziyalılardan biridir.Yorulmaz alim tədqiqatçı Məhəmməd Tağı Zehtabi türk dili haqqında dərc olunmuş bir çox kitabın və onlarca məqalənin müəllifidir.

**''İran türkçəsinin sərfi '', ''İslama qədər İran Türklərinin dil və** ***ədəbiyyatı'', ''İsmul*** məani''(Leksikologiya), ''Azərbaycanın yer adları'', ''Azərbaycan dilinin məhvi'', ''Ana dilimizi necə yazaq'', ''Zəbane'',farsi be zəbani milliye digər İrane bərtərətdarəd?''(fars dili İrandakı digər dillərdən üstündür?), ''Əl qəvaidül farsiyye'', ''Əbu nəvas əs Həsən bin Haki'' çap olunmuş doktorluq işi.

Alim dilçiliklə yanaşı,türk ədəbiyyatı ilə də məşğul olmuşdur.''Əruzun türk folklorunda izləri''adı altında çap edilmiş silsilə yazıları ümumtürk ədəbiyyatına daxil olan dəyərli yazılardandır.

Türkologiya,tarix,dilçilik,ədəbiyyat və folklora aid dəyərli əsərlərin müəllifi kimi tanınmış alim bədii yaradıcılıqla da məşğul olmuşdur. Böyük müşahidə qabiliyyətinə malik olan şairin qələmindən onlarla gözəl poemalar çıxıb.''Qoy olsun on'', '' Pərvanənin sərgüzəşti'', ''Bəz qalasında'', ''Şahin zəncirdə'', ''Bağban Eloğlu'', ''Çelik əfsanəsi'', ''Həstiyə nəsim''(farsca şeirləri), Bağdad, İstanbu,l Berlin və Təbrizdə nəşr olunmuşdur Tarixi olayları ədəbiyyata gətirən doktor M .Zehtabi '' İran türklərinin əski tarixi'', ''Kulliyate Əliağa Vahid'', ''Əliağa Vahiddən xatirələr'', ''Tulim-xan həyatı və yaradıcılığı''kimi mühim əsərlərin müəllifidir.

**Açar sözlər:** professor, milli hökumət, sürgün, varlıq, tarix, dil.

Elmi cəhətdən Cənubi Azərbaycan türk kimliyinin meydana gəlmə müddətini incələyərkən bəzi önəmli şəxsiyyətlər, ziyalılar və fəalların geniş çalışmaları insanı heyrətə gətirir. Yox olan və ya uzun müddət yox olan kimlik anlayışını yenidən meydana gətirmək, canlandırmaq ifadə olaraq siyasi səhnəyə daşımaq bu ziyalıların ən önəmli işləri olubdur. Bu sahədə hər bir ziyalı və siyasi fəal özünə görə dəyərli və önəmlidir. Sosial olaraq bəlli bir anlayışın cəmiyyətdə, mədəniyyətdə və millət içində yaymaq nə qədər çətin bir iş olduğunu hər kəs bilir. Amma bu çətinliklərə və işgəncələrə baxmayaraq, bu yola başlayan və davam etdirən dahi insanların mübarizə və inkişafetmə metodlarını araşdırmaq , öyrənmək və örnək tutmaq hər bir mədəni və siyasi hərəkatın aktivlərinin vəzifə borcudur.

Cənubi Azərbaycan milli hərəkatı , siyasi, mədəni və hüquqi olaraq yenidən canlanma və hərəkətə keçməsində bir çox insanın köməyi olmuşdur[1]. Həqiqətən bu insanlar içində

professor Məhəmməd Tağı Zehtabi bambaşqa bir dəyərə sahibdir. Bir neçə faktor professor Zehtabinin önəmli edir. Məqalədə onun sahib olduğu bu faktorları ələ alaraq onun nə qədər strateji və ağıllıca davrandığı incələyəcəyik.

Professor Zehtabinin bütün fəaliyyətləri, yazdığı əsərləri bəzi yazar və fəalların çalışmaları kimi təsadüfi bir iş deyil. Bunlar bütünlüklə bir strateji və şüurlu bir şəkildə görülmüşdür. Buna görə Cənubi Azərbaycan istəklərinə qarşı çıxanlar tərəfindən ən çox tənqid və hətta təxribata məruz qalan ziyalılarımızdır deyə bilərik. Professor Zehtabinin həyatı, fəalliyəti və əsərlərini şüurlu seçilmiş bir hədəfin cizgisində görmək və bu hədəfi açıqlamaq lazımdır. Fars millətçilər tərəfindən açıq-gizli siyasətlərlə silinməsi və assimiliyasiya edilməsi hədəflənən Azərbaycan Türk mədəniyyətini qorumaq, ölümdən qurtarmaq hər bir azərbaycanlının və türkün vəzifəsidir.

Professor Zehtabi bu hədəfi ən yaxşı şəkildə bilənlərdən biridir. Eyni zamanda bu hədəfə yetişmək üçün tələbələr yetişdirmək , kitab yazmaq və siyasi fəaliyyət göstərməklə məşğul olmuşdur. Onun araşdırmaları, yazıları və fəaliyyətləri bir neçə kateqoriyaya ayrılır. Siyasi fəaliyyət, dilçilik, tarix və ədəbiyyat. Bu dörd sahə də paralel fəaliyyət göstərmiş olan professor Zehtabi həyatı boyunca çalışaraq hər birinin əmələ gəlməsində çox böyük rol oynamışdır. Unudulmuş kimliyimizi yenidən kəşf etmək üçün bu dörd sahəni təməl sahələr olaraq təsvir edə bilərik[2].

Birinci olaraq onun gənclik illərindən başlayan və şərəfli ölümündən sonra da davam etdirilən bir siyasi həyat vardır. Bir siyasi fəal fiqurunda gənc ikən demokrat firqəsinin gənc qolun da yer alması və daha sonra Azərbaycan, Bakı və ordan da Sibirə və Bağdada sürgün olması professor Zehtabi ağır bir siyasi yükün daşıdığını göstərir. Hətta İran inqilabından sonra yurduna dönərək daha da önəmli siyasi həyat başlayaraq siyasi düşüncə seçir və nəfəs alıcı çalışmalarını davam etdirir. Bu fəaliyyətlər tələbələri vasitəsilə hələ də davam etdilir. Professor Zehtabinin xüsusən inqilab sonrası siyasi fəaliyyətləri hər bir Cənubi Azərbaycan siyasi fəalına örnək olmalıdır. Siyasi fəaliyyətində şüurlu və elmi çalışmaya önəm vermək onun bir xüsusiyyətidir. Yəni hər bir yazdığı elmi əsər və şeir özlüyündə siyasi bir fəaliyyətdir. Professor Zehtabi və bir neçə başqa ziyalını Pişəvəri dönəminin günümüzə başlayan fiqurlar olaraq da görə bilərik. Milli hökumətin süqutundan sonra Cənubi Azərbaycanda bir intelektual azlıq yaşanmışdır. Eyni zamanda milli hökumətdən sonra bir kimlik və mədəni dirçəlişyaranmışdır. Tarixdə bu cür hadisələr bir millətin nəfəsinin elə kəsər ki, yenidən ayaqda durmaq və ideyalarını canlandırması böyük güc və iradə istər. Çoxlu vəziyyətlərdə də yenidən ayaqda durmaq bir mədəniyyət və millət üçün mənfi hala gətirib çıxarar. Əsas məsələ bu cür tarixi sonrakı nəsillərə daşımaqdır[3].

İdeyaları ölümdən qurtarmaq , onları yenidən cəmiyyətə təzyiq etmək uzun müddətli bir işdir. Bunu öz tariximizdə rahatlıqla görə bilərik. Milli hökumət məşrutə və Xiyabani hərəkatından illər sonra eyni istəklər bir az fərqli durumlarda yenidən canlanmağa başlamış vəziyyətdədir. Bu ideyalar o dönəmlərdən yaxın zamanlara gətirib çatdıran bir neçə şəxsdən danışa bilərik. Barmaq sayıca olan bu şəxslər içində ən çox təsirli və önəmli olan professor Zehtabidir. Professor Zehtabi o dönəmin dəyərli ideyalarının eynisini davam etdirdiyini deyə bilərik. Professor Zehtabi o zaman Vətən anlayışından daha fərqli bir Vətən anlayışı ortaya qoydu. Milli hökumətdə ki, ana dili Azərbaycan və dövlət anlayışlarından təsirlənən bu anlayışlar təkəmmül etmişdir. Yəni Zehtabi milli hökumətin davamıdır. Diqqətli baxsaq, o, milli hökumətin təkamülüdür. “Onu milli hökumətin ideyalarından ayıran və ya birləşdirən insanlar kimlərdir” sualı tariximizin çox önəmli suallarındandır. Zehtabinin fəaliyyəti və əsərlərindən görünür ki, o, ilk dəfə türklüyü o dönəmin ideyalarına qataraq bu üç anlayışı yenidən əmələ gətirmişdir. Nəticə olaraq, Zehtabinin Cənubi Azərbaycan türklüyünün düşüncə atası olaraq təsdiq etmək yanlış olmaz[4]. Zehtabi ilə birlikdə iki düşüncə milli hökumət və

məşrutə sonrası özünü göstərmişdir. Birincisi İran türklüyü təsvir edilə bilər, ikincisi isə türklüyü vurğulamadan Azərbaycan olmuşdur. Bu iki düşüncə hələ də günümüzdə bir sıra fəal və ziyalı tərəfindən davam etdirilir, amma ümumi olaraq bu üç əsas düşüncənin hansı daha çox qəbul olunur?! Bu sual üzərində durmaq və fikirləşmək lazımdır. İranda və Cənubi Azərbaycanda son zamanlar hadisələrə baxdığımız zaman Zehtabinin vurğuladığı anlayışın nə qədər önəmli olduğu bilinir. Əsas məsələ budur ki, Zehtabi bu anlayışı necə yaratmışdır. Onun çəkdiyi cizgi hansı təməllərə dayanır. Bu da təkbaşına bir tədqiqat mövzusu olaraq işlənilməlidir.

Professor Zehtabinin dilçilik sahəsindəki dil çalışmaları, mühüm əsərləri və illər boyu şəhərdən şəhərə, kənddən kəndə dolanaraq dil kursları qurması dilin nə qədər önəmli olduğunu göstərir. Elə ki, o, həyatının böyük hissəsini dillə məşğul olmuşdur. Tələbələrinin dediyinə görə, o, türkcə yazmağa çox əhəmiyyət verirdi. Ona görə də Azərbaycan türkcəsinin öyrənilməsini vacib bilirdi.

Amma onun üçün türk dili niyə bu qədər vacib idi? Türkcənin Azərbaycana və azərbaycanlılara verdiyi nə ola bilər? Birinci olaraq hər mədəniyyətin ən önəmli ünsürü dil olduğunu hər kəs bilir. Dil bütün ictimai sistemlərin mərkəzində olduğunu bir çox ictimai xadim və filosoflar vurğulamışdırlar. Dilimiz mədəniyyət və düşüncə ola bilməz[5].

Eyni zamanda bir siyasi yöntəmin ən təbii və uyğun ictimai vahidi millətdir və hər millət öz gələcəyini təyin etmə bacarığına sahibdir. Yəni siyasi təşkilatlanmanın ideal şəkli millət, dövlətdir və müasir anlamda hər hakim dövlətdə tək bir millət olmalıdır. Bu da ortaq bir mədəniyyət içində ola bilər. Ortaq bir dil olmasa, təxil edilə bilməz. Bunlarla birlikdə tarix ünsürü də millət olmanın bir şərti sayılır. Millətçilik də elə bu deməkdir. Bu ünsürlərin sayəsində millətdə fərdlərə bir aidiyyat duyğusu yaranır. Bütün bunları yaratmaq üçün mərkəzi sayılan ünsür və problem dildir.

Dil hər şeydən öncə bir simvoldur. Dil millətin formalaşmasındaortaq kimliyin simvoludur. Bir olma düşüncəsi ancaq dildən keçir və dil bu anlayışın rəmzidir. Professor Zehtabi də bunu çox yaxşı bilirdi. Çünki, o, çalışmalarında çox önəm verdiyi və mərkəzi mövqedə tutduğu fenomen dildir. Azərbaycan türkcəsinin qrammatikasını, sərf və məhvini yazması, onu sistematikləşdirməsi dilçilik elminin inkişafına böyük kömək olmuşdur. Bir çox fəallar və hətta xalq onun kitabları ilə bu dili öyrənib və bu dildə yazıblar. Professor özü də bu dilin öyrədilməsində böyük rol oynamışdır. Onun dil dərsləri böyük və kiçik şəhərlərdə , dil öyrənmə mövzusunda böyük əhəmiyyət kəsb etmişdir. . Eyni zamanda bu dilin daha sonrakı nəsillərə də öyrədilməsində tələbələrinin boynuna böyük yük düşmüşdür.

Professor Zehtabi təkcə qrammatika, sərf və məhv yazmaqla kifayətlənməyib, eyni zamanda türkcənin tarixində "İran türklərinin əski tarixi" adlı kitabında ta şumerlərə qədər olan tarixi elmi faktlarla isbat etmişdir[6]. Yəni cəmiyyət tərəfindən yazı dili olmasını təmin etmiş və dil dərslərində də tələbələrə öyrətmiş və digər tərəfdən də onun tarixini və kökünü ortaya çıxarmışdır. Eyni zamanda da yazdığı şeirlərdə belə dilə fərqlilik və önəm vermişdir. Onun "Su deyibdir əvvəldə, anam mənə ab ki yox, yuxu öyrətdi uşaqlıqda mənə xab ki yox" şeirində də bu uğurunu görmək olar. Bütün bunlar bunu göstərir ki, professor Zehtabi dilin bütün tərəflərini anlayıb və onun önəmlərini həm siyasi, həm də mədəni olaraq yaxşı bilərəkhəyata keçirtmişdir.

Böyük əhəmiyyət daşıyan elmi tədqiqatlar professor Zehtabinin tarixi araşdırmalarıdır. Hətta pan arya və pan farsi kütlə tərəfindən ən çox tənqid gördüyü çalışmaları da onun tarixi çalışmaları olmuşdur. Professor Zehtabinin tarix çalışmaları İranda alternativ tarix yazarlığı kateqoriyasında yer alır. Araşdırılmayan tarixin əksində o tarixin yalanlarını ortaya çıxardaraq yenidən tarix yazmaq professor Zehtabinin tarix yazarlığının ən mühüm xüsusiyyətidir.

Mustafa Kamal Atatürk"Tarix yazmaq tarix yaratmaq qədər önəmlidir"- deyir. Bu baxışla professor doğrudan da özlüyündə bir tarixdir. Tarix yazmaq keçmişi aydınlığa çıxardaraq gələcəyə işıq tutar. Ölkəsinin tarixini bilməyən tarix yaza bilməz. Kollektiv ad, ortaq tarix, ortaq mədəniyyət, ortaq ərazi dayanışma hissi kimi xüsusiyyətlər, millətləri bir birindən ayırır. Millət tərifində də tarix, torpaq, dil, ölkə, adət-ənənə ünsürləri arasında millət ünsürünü görmək mümkündür. Soykökünü isbat edən bir tarix millətinbirlik duyğusunu artırır. Ard-arda gələn nəsillərin kollektiv təcrübələri tarix kitablarında toplanır və öyrənilir. Təlim baxımından bunun çox önəmli olduğu məlumdur. Uşaqlar cəmiyyət dəyərləri, norma və ümumi olaraq mədəniyyəti öyrənərkən öz tarixini də öyrənirlər və sözü keçən hiss , beləliklə, onlarda da oyanır. Bu duyğu olmadan kimliyi mənimsəmək mümkün deyildir. Nəticədə tarix millətdə millətçilik hissini oyandırır. Bu duyğu, fərd və cəmiyyətdə bir mənsubiyyət şüurunu canlı tutur və onu dərinləşdirir. Professor Zehtabinin tarix çalışmalarında da bu yöndə olmuşdur. Bu gün yaşadığımız torpaqların nəzərində min illər əvvəl atalarımızın yaşadığını isbatlayan Zehtabi bu duyğunun yaranmasında önəmli rol oynamışdır. Zehtabinin tarix çalışmaları eyni zamanda İran, Orta Şərq və Orta Asiya tarixinə elmi olaraq fərqli bir yol açdı. Bu yol günümüzdə də Cənubi Azərbaycan siyasi mühitinin tarixi yönünü əmələ gətirir. Millətçi hissinin əsas dayanağı olan tarix görüşü olmasa, hüquqi istəklər və ideoloji mühit sağlam təmələ malik deyildir. Cənubi Azərbaycan və ümumi İran türklüyün tarix babası sayılacaq qədər önəmli olan professor Zehtabi tarixi araşdırmalarının nə qədər önəmdaşıdığını görmək olar.Tarix millətin xarakter dəyərlərini göstərir.Millət olaraq həyatı davam etdirmək üçün tarixə dayanmaq vacibdir. Nəticədə professor Zehtabi tarixi araşdırmaları ilə Azərbaycan millətinə ortaq bir ruh toxudu və onu bəyənərək zənginləşdirdi. O, tarixdəki hadisələrə keçmişdən qalan hər şeyə dönəmin ehtiyaclarına görə yeni bir nəfəs gətirdi. O bilirdi ki, tarix düşüncəsi keçmişdən qidalanmaqla bərabər irəliyə doğru gedən düşüncəyə dayanır və gələcəyə istiqamət verir. Nəticədə, İranda və xüsusilə Cənubi Azərbaycanda türklüyü və azərbaycançılığı cəmiyyətdə yayan və elmi olaraq geniş bir tədqiqatıortaya qoyan Zehtabi, Azərbaycan milli hərəkatının düşüncə və ilham qaynağıdır. O, bir intelektual şair , dilçi, siyasətçi və bir millətçi kimi simaları daşıyırdı.

## Ədəbiyyat

1.Dağşəhərli Həbib "Ustad Məhəmməd Tağı Zehtabi ilə son müsahibə" Mecmua-ye Malakat

2. Əli Qafqasiyalı (2000) "Güney Azərbaycan (İran ) Türkləri Ədəbiyyatından incilər" (Palandönen Qazetesi 10 Nisan) Erzurum.

3. Kerimi, Mehemmet Riza. Elimizin Nisgil Çalağı Profesör Zehtabinin Yaşayış ve eserleri. 1389/2011. Elimizin Mübariz Bilgini İntişarat-ı Tekdire (Tehran 1389-2011)

4. Mişovlu M. (prof. Dr.Mahmut taki Zehtabi) (1372/1993) Goy Olsun on, Hikayeler ve xatireler, İntişaratı Eldar, Tebriz

5. Şəbusteri M : (Prof. Dr. Mahmut Taki Zehtabi) (1376/1997) Bağban Eloğlu Moneg Neşriyyat evi

6. Tağıyeva Ş.Rehimli. E.Bayramzadə S. (2000) Güney Azerbaycan Bakı

K.Mammadova

M. Z. Zehtabin's struggle for existence and cleanness
of Azerbaijani language
Summary

The article is dedicated to the life and work of M.Z. Zehtabi. It is emphasized that professor Zehtabi plays an important role in the development of the Azerbaijani language.In the article, M. Z. Zehtabi is given a great importance in the formation of the national spirit in Iran and South Azerbaijan. It is one of the most important damages in the spread of linguistics in Southern Azerbaijan.

Doctor M.Z Zehtabi has remained faithful to his love for nation forever.Tireless scientist researcher M.T Zehtabi is the author of many books and dozens of article about Turkish language. In addition to linguistics,the scientist was also engaged in turkish literature.The are dozens of beautiful poems from the poet's pen, which has great observation ability. ''Qoy olsun on'', ''Pervanenin serguzeşti'', '' Bez qalasında'', ''Şahin zencirde'', ''Bagban Eloglu'', ''Celik efsanesi'', '' Hestiye Nesim'',( persian poems), '' Gashgayı yaylaga kocur'' art works were published in Baghdad, Istanbul, Berlin and Tebriz at different times. M.T Zehtabi devoted his whole life to the Turkish language in the state education in the Southern Azerbaijan.

Keywords: professor, national government, exile, existence, history, language.

К.Маммадова

Борьба М.З. Зехтаби за существование и чистоту азербайджанского языка
Резюме

Статья посвящена жизни и творчеству М.З. Зехтаби. Подчеркивается, что профессор Зехтаби играет важную роль в развитии азербайджанского языка.В статье М.З. Зехтаби отводится большое значение в формировании национального духа в Иране и Южном Азербайджане. Он один из важнейших языкаведов в распространении лингвистики в Южном Азербайджане.Доктор М.Т Зехтаби навсегда остался верен своей любви к нации.Неутомимый ученый-исследователь М.Т Зехтабти-автор многих книг и десятков статей о турецком языке.

Помимо лингвистики,ученый также занимался турецкой литературой. Ето десятки прекрасных стихов из пера поета,который обладает большой способностью к наблюдению. '' Qoy olsun on'', ''Pervanenin serguzesti'', '' Bez qalasinda'', '' Sahin zencirde'', '' Bagban Eloglu'', '' Celik efsanesi'', '' Hestiye Nesim'' (Персидские стихи) Произведения искусства Gashgayi yaylaga kocur были опубликованы в разные времена в Багдаде и в Берлине.Зехтаби посвятил всю свою жизнь турецкому языку в государственном образовании Южного Азербайджана

**Ключевые слова:** профессор, национальное правительство, изгнание, существование, история, язык.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 01.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nailə Mustafayeva tərəfindən çapa tövsiyə olunmuşdur.